AZƏRBAYCAN XƏBƏRLƏRİ

# Naxçıvanda inflyasiya yüksək, əməkhaqqı azdır

indicə




'Türkiyənin, Rusiyanın küçələrində qalmışıq' - Naxçıvan sakini

Naxçıvan Muxtar Respublikasında (MR) Azərbaycanın qalan əraziləri ilə müqayisədə Ümumi Daxili Məhsul (ÜDM) daha çox artıb, amma inflyasiya da yüksəkdir, əvəzində orta aylıq nominal əməkhaqqı azdır.

Naxçıvan MR Dövlət Statistika Komitəsinin (DSK) bu gün, sentyabrın 14-də açıqlanan son aylıq hesabatının təhlili bu nəticəni ortaya çıxarıb.

Hesabata görə, **bu ilin avqustunda ötən ilin eyni ayı ilə müqayisədə MR-də ÜDM 2.2 faiz artıb.** Bütünlükdə Azərbaycanda bu artım həmin dövrdə 1.2 faiz olub.

Əvəzində muxtar respublikada inflyasiya 9.1 faizə yüksəlib. Bütünlükdə Azərbaycanda isə bu rəqəm 5.7 faiz təşkil edib.

Naxçıvanda orta aylıq əməkhaqqının həcmi isə azdır. İyulun sonunda (avqust açıqlanmayıb) bu, 869.4 manat olub. Bütünlükdə Azərbaycanda isə həmin ay orta aylıq əməkhaqqı 1176.7 manata yüksəlib.

Son rəsmi məlumatlara görə, Naxçıvan MR-nın 473 mindən çox əhalisi var.

MR DSK məlumatına görə, 2025-ci ilin sonunda Muxtar Respublikada rəsmi işsiz statusunda qeydiyyata alınan şəxslərin sayı 14 min 504 nəfərə çatıb. Amma yerli sakinlər deyir ki, MR-də real işsizlər daha çoxdur. Onların sözlərinə görə, MR-in bir çox sakini çörəkpulu ardınca qonşu Türkiyəyə üz tutublar.

## Xatırlatma

1995-ci ildən Naxçıvan MR Ali Məclisinə sədrlik edən Vasif Talıbovun dörd il öncə, 2022-ci ildə istefaya göndərilməsi muxtar respublikada dəyişikliklərə səbəb oldu. Həmin il dekabrın 22-də prezident İlham Əliyev ora öz səlahiyyətli nümayəndəsini göndərdi. Daha sonra muxtar respublikada bir çox vəzifəli şəxslər mənimsəmə və başqa ittihamla istintaqa cəlb edildilər.

Naxçıvan MR 1924-cü ildə yaradılıb. Onun Azərbaycanın başqa əraziləri ilə quru sərhədi yoxdur. Türkiyə, Ermənistan və İran İslam Respublikası ilə qonşudur.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur